# *İmran Məmmədov:* Xoşbəxtəm ki, Qələbədə müzəffər ordunun əsgəri kimi mənim də payım var





Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Gənclərimizin vətənpərvər ruhda tərbiyə olunması xalqımızın rifahının, ölkəmizin çiçəklənməsinin bir növ rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalarımızdan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub saxlayır və yaşadır.

"İki sahil" 2 fevral- Azərbaycan Gəncləri Günü münasibətilə gəncliyimizin uğurlu simalarını təqdim edir:

**Həmsöhbətimiz Məmmədov İmran Elçin oğludur.** O, 29 noyabr 1997-ci ildə Bakıda anadan olub. Orta təhsili 267 saylı tam orta məktəbində alıb. 2015-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) qəbul olunub.Tələbəlik illərində 2016-2019-cu illərdə UNEC-in Tələbə Həmkarlar İttifaqı Komitəsi üzrə fakültə sədri, həm də YAP üzrə fakültə koordinatoru kimi fəaliyyət göstərib. Tələbəlik illərində yüzlərlə tədbir, idman yarışları və konfrans təşkilatçısı olub. Təşkilatçısı olduğu tədbirlərin əksəriyyəti vətənpərvərlik mövzusunda olub: "Çalışdığımız qədər keçirdiyimiz idman yarışlarını da ölkəmiz üçün xüsusi günlərə həsr etmişik. Sevindirici haldır ki, gənclərimiz çox aktiv yanaşırlar bu məsələlərə. Gənclərimizin bu cür vətənpərvər olması məni çox sevindirir."

İ.Məmmədov bildirdi ki, 2019-cu ildə bakalavr təhsilini bitirərək Azərbaycan Dövlət İqtisad Universitetinin magistratura pilləsinə daxil oldum: "Oktyabr ayında könüllü şəkildə təhsilimi donduraraq hərbi xidmətə yollandım. 2020-ci il sentyabr ayının 27-də işğalçı Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ali Baş Komandanımızın əmri ilə ordumuz bütün cəbhəboyu əks-hücuma keçdi. Döyüşə Füzuli rayonundan başladıq. Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd, Şuşanın Daşaltı, Xocavənd rayonunun Qırmızı Bazar istiqaməti və Laçın uğrunda gedən döyüşlərdə iştirak etdim. "Vətən Müharibəsində" iştirak medalı və hərbi hissə komandirimiz tərəfindən döyüş tapşırığını layiqincə yerinə yetirdiyimə görə Fəxri Fərmanla təltif edildim. 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ali Baş Komandan cənab İlham Əliyevin daxili və xarici siyasəti, müzəffər Ordumuzun gücü sayəsində torpaqlarımız işğaldan azad edildi. Xoşbəxt Azərbaycan gənclərindən biriyəm ki, Azərbaycanın ərazi bütövlüyünün bərpasında qalib ordunun qalib əsgəri kimi payım var. Çox sayda dostlarım, silah yoldaşlarım şəhid oldu, bəziləri isə qazi oldu. Bütün şəhid ailələri qarşısında baş əyir, qazilərimizə isə Allahdan şəfa diləyirəm!"

Həmsöhbətimiz Azərbaycan gəncliyinin yeni yazılan tarixdə rolu olduğunu bildirdi: "Biz çox sevinirik ki, yeni yazılmış və gələcəkdə dərsliklərə salınacaq tarixdə bizim də imzamız oldu. Bu müddət ərzində biz ön cəbhədə olmağımıza baxmayaraq, Azərbaycan xalqı arxa cəbhədə daima bizim yanımızda olduğunu sübut etdi. Göndərilən yardımlar, şagird və tələbələrimizin bizə ünvanladığı o məktublar bizə əlavə olaraq güc və stimul verirdi. Dünya Azərbaycanlı olmağın, birliyimizin gücünü gördü. Yaşasın Azərbaycan xalqı!"

İmran Məmmədov qeyd etdi ki, gənclər onlara göstərilən etimadı doğrultmalıdır: "Bildiyiniz kimi, 1 fevral 1997-ci ildə ulu öndərimiz Heydər Əliyevin imzaladığı Sərəncama əsasən 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunur. Bu, Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının bir nümunəsi idi. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Ulu öndər Heydər Əliyevin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Prezidenti İlham Əliyev bu meyarları nəzərə alaraq ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərə böyük inam bəsləyir. Və biz gənclər də bizə göstərilən etimadı daim doğrultmalıyıq."

İ.Məmmədov bu misralarla söhbətimizə yekun vurdu:

Dəyirman dənsiz olmaz,  
Ruh ki, bədənsiz olmaz.  
Can Vətənə bağlıdır,  
İnsan vətənsiz olmaz!

**Yaqut Ağaşahqızı,**  
***"İki sahil"***